www.525.az Facebook.com/525-ci qəzet - 525.az Instagram.com/525ciqezet

**Azərbaycan Milli Elmlər Akademiyası-80**

# Repressiya



**Asif RÜSTƏMLİ**
**Filologiya elmləri doktoru, professor**

Repressiya və ədəbiyyat: hər iki məfhumun mənşəyi özgə xalqlara mənsub olsa da, lüğət xəzinəmizdə ən işlək kəlmələrdi və leksik mənası bir-birinə zidd olan şərti antonimlərdir.

Repressiya - latın kökənlidir, dövlət orqanları tərəfindən öz vətəndaşlarına qarşı tətbiq edilən cəza metodları: işgəncə, şiddət, zülm, zorakılıq, sürgün, terror, qətl və s. anlayışların sinonimi, diktatura rejimlərinin cəmiyyətdə qorxu xofu yaratmaq üçün mütəmadi müraciət etdiyi inzibati-psixoloji cəza silahıdır.

Ədəbiyyat - ərəb mənşəlidir və mənasında, məzmununda ədəb, nəzakət, nəciblik, mərifət, səmimiyyət, əxlaq, tərbiyə, mədəniyyət və s. ali-mənəvi konseptlər məcmusu, ictimai şüurun bədii təzahür formasıdır.

Repressiyanın ədəbiyyat üzərində təsiri, hökmranlığı ötəri, müvəqqəti, ədəbiyyatın repressiya üzərində tərbiyəvi-profilaktiki islah imkanları ədəbi və əbədidir. Repressiya cahillikdən, zorakılıqdan qaynaqlanır və qan, qətl ilə nəticələnir, ədəbiyyat isə ziyadan və zəkadan güc alır, mədəniyyətin, mənəviyyatın təkamülünə, tərəqqisinə təkan verir. İstiqlalına, özgürlüyünə sahib çıxmayan xalq istilaya, repressiyaya məhkumdur.

Azərbaycan xalqı da, Cümhuriyyətini, müstəqilliyini itirdikdən sonra 70 il sovet rejimi dönəmində zaman-zaman repressiv tədbirlərin ağrısını, acısını yaşamış, əzabını, məşəqqətlərini öz üzərində hiss etmişdir.

Bolşevik hərbi diktaturasının ilk işğalçı, repressiv hücumuna müstəqil Azərbaycan Cümhuriyyətinin dövlətçilik sistemi, siyasət adamları, elm, təhsil, mədəniyyət xadimləri məruz qalmışdır. Cümhuriyyətin mühüm siyasi simalarından, dövlət xadimlərindən Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Yusifbəyli və başqaları qırmızı terrorun qurbanı olmuşlar. Cümhuriyyət Parlamenti müqavimət göstərmədən hakimiyyəti bolşevik rejiminə təhvil versə də, Məclisi-Məbusan üzvlərindən Abuzər Rzayev, Məhəmməd Bağır Şeyxzamanlı, Murtuza bəy Axundzadə, Museyib bəy Əxicanov, sabiq Duma üzvü İsmayıl xan Ziyadxanlı və digər görkəmli ziyalılar sovet rejiminin gülləsinə tuş gəlmişlər.

Gəncə Kiçik Zabitlər məktəbinin məzunu, Cümhuriyyət dövründə Tiflisdəki Azərbaycan səfirliyi yanında hərbi attaşenin xüsusi tapşırıqlar üzrə ober-zabiti, sovetləşmənin ilk illərində Azərbaycanın Ankarada hərbi attaşesi Ələsgər (bəzi sənədlərdə qısaca olaraq Əsgər - A.R.) Əsgərov-Kəngərli faktlar əsasında qələmə aldığı "Azərbaycan faciəsi" adlı memuarında Rusiya XI Ordusunun Xüsusi şöbə rəisi və Azərbaycan Fövqəladə Komissiyasının ilk sədri Semyon Pankratovun qəddarlığının, qaniçənliyinin acı nəticəsi haqqında yazırdı: "Oxucunu yormaqdan ehtiyatlansam da, bolşeviklərin Azərbaycanda ağalıqlarının birinci ilində özümə rəva bilərək şəxsən hazırladığım, yalnız öldürülmüş rütbəli hərbçilərin tam olmayan siyahısının nəticəsi: 12 general, 27 polkovnik və podpolkovnik, 46 kapitan, ştabs-kapitan, poruçik, 148 praporşik və digər 266 nəfər (hamısı müsəlman). ...Bütövlüklə aprel 1920-ci ildən-avqust 1921-ci ilədək Azərbaycanda 48 min insan qırmızı terrorun qurbanı olmuşdur ki, onlardan da əhəmiyyətli bir hissəsi ziyalıların payına düşür" (Ələsgər Əsgərov Kəngərli. Azərbaycan faciəsi (rus dilində) / Təqdim edəni və ön sözün müəllifi A.Rüstəmli // - Bakı, Xəzər jur., 1990, №3, s. 86-87).

Yalnız bu fakt isbatlayır ki, Azərbaycanda xalqın təhlükəsizliyinə cavabdeh orqanlar xalq üçün ən ciddi təhlükə mənbəyi olmuşdur.

**I. Elm və mədəniyyət xadimlərinin repressiyası**

Qırmızı terrorun qurbanı olmuş görkəmli ziyalılardan biri Azərbaycan ədəbiyyatı tarixinin banisi, görkəmli ədəbiyyatşünas-alim, maarifçi, pedaqoq, Qazax Müəllimlər Seminariyasının qurucusu və rəhbəri Firidun bəy Köçərli (1863-1920) idi. O, Qori Müəllimlər Seminariyasında işlədiyi illərdə şəriət müəllimi Mahmud Əfəndizadə ilə birlikdə "Tarixi-müqəddəs" (1899) adlı kitabın tərtibçisi, A.O.Çernyayevskinin "Vətən dili" (1908) adlı dərsliyinin redaktoru olmuş, kitabı yeni məlumat və hekayələrlə zənginləşdirmişdir.

Firidun bəy Köçərli böyük dramaturqun 100 illiyinə həsr etdiyi "Mirzə Fətəli Axundov" (1911) adlı kitabını Tiflisdə "Kultura" mətbəəsində çaplatmış, onun Azərbaycan ədəbiyyatı tarixində yerini və rolunu ədəbi meyarlara və dəyərlərə uyğun qiymətləndirmişdir. Ədib pedaqoji fəaliyyətlə, tədrislə yanaşı, həm də fədakar folklor toplayıcısı idi. Dərslərində və dərsliklərində gənclərə öyrətdiyi mövzularla bərabər xalq yaradıcılığına da xüsusi əhəmiyyət verər, folklor nümunələrindən çoxsaylı misallar gətirərdi. Onun 1912-ci ildə Bakıda "Kaspi" mətbəəsində nəşr etdirdiyi "Balalara hədiyyə" kitabında milli nağıl, hekayə, məsəl, tapmaca və müxtəlif janrlı mənzumələrə geniş yer ayrılmışdır.

Şübhəsiz ki, Firidun bəy Köçərlinin böyük əzab-əziyyətlər hesabına yazıb 1913-cü ildə tamamladığı şah əsəri "Azərbaycan ədəbiyyatı tarixi materialları"dır. Təəssüf ki, bu mötəbər tədqiqatının nəşrini görmək Firidun bəy Köçərliyə nəsib olmadı. O, 1920-ci ilin may ayında "xalqa xəyanətdə", "milli nifaq törətməkdə", "torpaq və mülk zəbt etməkdə" günahlandırılaraq həbs olunmuş, işğalçı XI Qırmızı ordunun 20-ci diviziyasının bölmə rəisi Libermanın qərarı və daxili işlər komissarı Həmid Sultanovun dərkənarı əsasında güllələnmişdir. Bolşevik rejiminin Azərbaycan ədəbiyyatına açdığı ilk atəş Firidun bəy Köçərliyə və onun "Ədəbiyyat tarixi"nə dəymiş, müəllifi xilas etmək mümkün olmasa da, əsər "milli ruhlu loğman"larımız tərəfindən həyata qaytarılmışdır.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Tarix-Etnoqrafiya seksiyasının 1923-cü il noyabr tarixli iclasında Ə.B.Haqverdiyevin təşəbbüsü ilə "Firidun bəy Köçərlinin Azərbaycan türklərinin ədəbiyyatı" ilə bağlı əlyazmalarının təhvil alınması məsələsi Xalq Maarif Komissarlığı qarşısında rəsmi şəkildə qaldırılmış, "Azərbaycan ədəbiyyatı tarixi materialları" müəllifin həyat yoldaşı Badisəba xanım Köçərlidən (1881-1954) alınaraq ATTC-də çapa hazırlanmışdır. Əsər dörd müstəqil hissədən ibarət (ümumi həcmi 1475 s.) olmaqla 1925-1926-cı illərdə yayımlanmış və Birinci Türkoloji Qurultayın nümayəndələrinə paylanmışdır.

Cümhuriyyətin işğalının ilk günlərində qırmızı terrora məruz qalan tanınmış ziyalılardan biri də Gəncədə yaşayıb-yaradan görkəmli maarif xadimi, folklorşünas, pedaqoq Mirzə Abbas Abbaszadə (1870-1920) idi. O, təhsil sahəsində 25 ildən çox fəaliyyət göstərmiş, neçə-neçə nəsillərin maariflənməsində, milli ruhlu gənclərin yetişməsində əmək sərf etmişdir.

Gəncə Mədrəsəsinin müəllimi Mirzə Abbas Abbaszadənin ikinci sinif üçün "Şəriət dərsi" adlı ilk kitabı 1910-cu ildə, həmin dərsliyin təkmilləşdirilmiş versiyası Hacı Həsənzadə qardaşları mətbəəsində 1912-ci ildə nəşr olunmuşdur. O, Gəncə şəhər məktəbində türk dili müəllimi işlədiyi vaxtlarda "Birinci il. Türk əlifbası" (1913) dərsliyini Bakıda "Kaspi" mətbəəsində çap etdirir.

Mirzə Abbas həm də folklorşünas və ağız ədəbiyyatının toplayıcısı idi. Onun bayatı, haxışta, layla, qayınana-gəlin sözləri və sevgi şeirlərindən ibarət "Arvad ağısı" (1914) toplusu dövrünün ən çox oxunan və sevilən kitablarındandır və 1918-ci ildə Qafur Rəşad Mirzəzadənin naşirliyi ilə yenidən çap olunmuşdur.

Gəncə şəhərində 1919-cu ilin may ayında Mirzə Abbas Abbaszadənin pedaqoji fəaliyyətinin 25 illiyi təntənəli şəraitdə qeyd olunmuş, Bakıdan Ağababa İsrafilbəyzadə, Hüseyn Cavid, Abdulla Şaiq, Cəmo bəy Cəbrayılbəyli, Rəşid bəy Əfəndizadə, Ağaəli Qasımzadə və b. ziyalıların üzv olduğu Türk Müəllimlər İttifaqının təbriki yubilyara ünvanlanmışdır. Təbrikdə yazılmışdı: "...milli müəllimimiz Mirzə Abbas Abbaszadə cənablarının 25 sənəlik xidmətini təqdir edərək, göstərdiyi fədakarlıqlardan dolayı saf bir türk qəlbi ilə alqışlar və təbrik edər" (Müəllimlər İttifaqında. Azərbaycan qəz., / - Bakı: ADA Universitetinin nəşri. 2023, VIII cild, s.346).

Fədakar ziyalı, folklorşünas, istedadlı pedaqoq Mirzə Abbas Abbaszadə peqaqoji fəaliyyətinin 25 illik yubileyindən bir il sonra - 1920-ci ilin may ayında S.Pankratovun cəlladları tərəfindən evinin giriş qapısına çağırılaraq məhkəməsiz, sorğu-sualsız vəhşicəsinə güllələnmişdir.

Semyon Pankratovun birbaşa göstərişi ilə XI Ordunun Xüsusi Şöbəsinin növbəti repressiv hücumu parlament müstəvisində Müsavata müxalifətdə dayanan və Məclisi-Məbusanda 13 deputatla ikinci fraksiya hesab edilən "İttihad" firqəsini hədəfə alındı. Partiyanın rəhbəri Qara bəy Qarabəyovun qara günləri başladı. Buna əsas səbəb Mir Yaqub Mehdinin Parisdən partiya sədrinə göndərdiyi xəbərdarlıq məktubu olmuşdur. Mir Yaqub Qara bəyə ünvanladığı müraciətində yazırdı: "Sizin partiya əqidəniz, meyliniz və əlaqələriniz barədə nə desələr də, bir şeyi həmişə yadda saxlamağı dönə-dönə xahiş edirik - Azərbaycan xalqının rifahı və onun müstəqilliyi naminə yorulmadan daim gərgin fəaliyyətiniz sizin vahid həyat amalınız olmalıdır" (Ziya Bünyadov. Qırmızı terror. - Bakı: Azərnəşr, - 1993, s.17 (332).

M.Y.Mehdinin firqədaşlarına göndərdiyi məktub gecikmişdi. 1920-ci ilin iyulunda Cümhuriyyət Parlamentinin "İttihad" fraksiyasının sabiq üzvlərindən doktor Cəmil bəy Lənbəranski, Bəhram bəy Vəzirov, Məhəmməd Həsən Həsənov və b. 155 nəfər ittihama cəlb edildi. İttihadçılar üçün açılmış 20201 nömrəli cinayət işinin həcmi 1800 səhifəyə yaxındır. Doktor Qara bəy Qarabəyov yalnız 1920-ci il 4 sentyabr tarixində Az.FK tərəfindən həbs olundu və məsləkdaşları doktor Cəmil bəy Lənbəranski, Məhəmməd Həsən Həsənov, Əli bəy Aşurbəyov və b. Moskvadakı Butırski həbsxanasına göndərilmişdir.

"İttihad" firqəsi sovet rejiminə qarşı silahlı üsyan qaldırmaqda günahlandırılırdı. 1921-ci il yanvar ayının 25-də Rusiya XI Ordusu Xüsusi şöbəsinin rəisi S.A.Pankratov, Fəal hissənin rəisi Aşukin və baş hərbi müstəntiq Qubinin birgə qərarı bəlli oldu. Yazıçı-dramaturq, Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun üçlüyün qərarına müdaxiləsindən sonra tanınmış maarifçi Bəşir bəy Aşurbəyov zaminə götürülmüş və 110 nəfər ittihadçı həbsdən azad edilmişdir. İttiham olunan ziyalılardan və firqə üzvlərindən yalnız 41 nəfər 5 il müddətinə, aministiya hüququ verilmədən Rusiyanın Xolmoqor, Ryazan, Nijni Novqorod şəhərlərindəki ölüm düşərgələrinə göndərilmişdir.

Azərbaycan ziyalılarının müəyyən bir qrupu öz vətənlərində digər dövlətin xüsusi orqanları tərəfindən zorakılıqla həbs edilib, mühakimə olunmuş və cəza çəkmək üçün uzaq Solovkiyə - "buzlu cəhənnəm"ə yola salınmışdır. Bu fakt sovetləşmənin ilk illərindən Azərbaycanda dövlət müstəqilliyinin və insan haqlarının mövcud və acınacaqlı vəziyyətini qabardan, diqqətə çatdıran çoxsaylı nümunələrdən biridir.

+++

Sıralarında ədəbiyyat və mədəniyyət xadimlərini, mətbuat işçilərini birləşdirən Müsavat firqəsi dövlət qurumlarının, siyasi idarələrin qərarı ilə qadağan edilsə də, bu partiya Mirzə Bala Məhəmmədzadənin rəhbərliyi ilə gizli, qeyri-leqal fəaliyyət yolunu seçmişdir. Özlərini "Sol Müsavatçılar", "Milli İstiqlal hərəkatı" adlandıran bu təşkilatın baş katibi vəzifəsinə görkəmli dramaturq, yazıçı, şair Cəfər Cabbarlı, sədr müavinliyinə isə mühərrir, publisist Əbdül Vahab Yurdsevər təyin edilmişdir. Konspirativ fəaliyyət göstərən "Milli İstiqlal hərəkatı" 1920-1923-cü illərdə ölkə daxilində və xaricində təşkilatlanmış, həbs olunan üzvlərinin ailələri üçün yardım fondu yaratmış, gizli mətbəə təşkil olunmuş və hətta "İstiqlal" qəzetinin 19 nömrəsini hazırlayıb buraxmışlar.

Zaqafqaziya Fövqəladə Komissiyasının sədr əvəzi S.A.Pankratovun göstərişi ilə Azərbaycan FK-nın Agentura şöbəsinə gizli Müsavatın rəhbərləri Mirzə Balanın, Cəfər Cabbarlının və Əbdül Vahabın fəaliyyəti və əlaqələri üzərində nəzarəti artırmaq barədə (331/150/393 saylı sənəd) xüsusi tapşırıq verilmişdir. 1923-cü il iyunun 14-dən 15-nə keçən gecə 15 nəfər tanınmış ziyalı, ictimai-siyasi xadim, ədib, jurnalist həbs olunmuşdur. İttiham edilənlərin sırasında Əbdül Vahab Məhəmmədzadə, Məmməd Sadıq Quluzadə, Cəfər Cabbarlı, Seyid Hüseyn Sadıq, Novruz Ağazadə, Rəhim Vəkilov, Kərbəlayi Vəli Mikayılzadə, Həmid Qarayev, Nəriman bəy Nəriman-

www.525.az Facebook.com/525-ci qəzet - 525.az İnstagram.com/525ciqezet

**Azərbaycan Milli Elmlər Akademiyası-80**

# və ədəbiyyat

bəyli, Əli Əfsər Nəcəfzadə, Məhəmməd Sadıq Axundzadə, Əli Əkbər Süleymanzadə kimi mübariz istiqlal mücahidləri, gənc vətənpərvər və millətsevər ziyalılar vardı. Həbslər gecə keçirildiyindən ictimaiyyət çekistlərin məxfi əməliyyatlarından xəbərsiz olmusdur.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin peşəkar stenoqrafçıları olan Cəfər Cabbarlının və Seyid Hüseynin Az.FK tərəfindən həbs olunduğu Azərbaycan Şura Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğluna yalnız üç gündən sonra məlum oldu. MİK-in Üçüncü plenumunun iclasları iyunun 16-dək davam etdirilsə də, stenoqrafik hesabatlar yalnız 13 iyun gündüz iclaslarının materialları da daxil olmaqla qəzetlərdə çap edildi. Mətbuatda iyunun 16-da keçirilən plenumun materialları əvəzinə oxuculara bir cümlə informasiya verilirdi: "Həziranın (iyunun - A.R.) 16-da Azərbaycan Şura Mərkəzi İcraiyyə Komitəsinin 3-cü plenumun iclası Torpaq qanun məcəlləsini, Ümumazərbaycan qanun məcəlləsini və Naxçıvan ölkəsinin Azərbaycana mülhəq olmaq (birləşdirmək - A.R.) qanun layihəsini qəbul edib. Qapandı" (Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi 2-ci qurultayı 3-cü plenumunun iclası. - Bakı: Kommunist qəzeti, - 1923, 18 iyun, № 136).

Yalnız plenum qapandıqdan sonra MİK-in rəhbərliyi "itkin düşmüş" əməkdaşlarını və 14 iyun 1923-cü il iclasının stenoqrafik hesabatını aramalı oldu. Axtarış uzun sürmədi. MİK-in stenoqrafçılarının səsi Az.FK-nın zindanlarından gəlirdi. Azərbaycan Şura Mərkəzi İcraiyyə Komitəsinin Xüsusi şöbəyə və FK-ya ünvanladığı 17 iyun 1923-cü il tarixli, 240 saylı müraciətində yazılırdı: "Tamamilə məxfi. Azərbaycan Respublikasının Xüsusi şöbəsinə, surəti Az.FK-ya.

Az.MİK-də olan məlumata əsasən Sizin həbs etdiyiniz vət. Seyid Hüseyn Sadıxov və Cəfər Cabbarlı MİK-in 3-cü sessiyasının stenoqrafik hesabatını aparırdılar və tutularkən hesabat onlarda idi.

Hesabatın Az.MİK-ə verilməsi zəruriliyini vacib sayaraq 18 iyun 1923-cü il saat 12-dən gec olmayaraq hesabatın onlardan alınıb Az.MİK-ə təqdim olunması üçün təcili sərəncam verməyinizi Sizdən xahiş edirəm.

Az.MİK-in Rəyasət Heyətinin üzvü və katibi M.Xanbudaqov" (Tamamilə məxfi. AR MTN. Arxiv № 519, Qeydiyyat-statistika hissəsi, iş № 449).

Az.MİK-in müraciətinə Az.FK-nın sədr müavini Qaber-Korn operativ reaksiya verdi. Məktubun yol. Şahverdiyana göndərilən 17 iyun tarixli dərkənarında yazılırdı ki, sübutlar məhz bu gün istintaqdan götürülməli və qaytarılmalı. Məxfi şöbədə 1442 №-si ilə qeydə alınan məktub icra üçün Zaqafqaziya FK-sının Bakıdakı müstəntiqi, C.Cabbarlının istintaqını aparan Valik və Loqinova göndərildi. Ertəsi gün, iyunun 18-də Mərkəzi İcraiyyə Komitəsinə göndərilən 12 vərəqəlik stenoqrafik hesabata əlavə edilmiş məktubda yazılırdı: "Az.MİK-ə. Sizin 17 iyun 1923-cü il tarixli, 240 saylı müraciətinizə əsasən Az.MİK-in 3-cü sessiyasının türk dilində stenoqrafik hesabatı göndərilir. Əlavə: 12 vərəq. Az.FK-ının sədr müavini Qaber-Korn, Məxfi İqtisadi şöbənin rəisi Jurba. 18/VI-23" (AR MTN. Arxiv № 519, Qeydiyyat-statistika hissəsi, iş № 449).

Bu sənədin özü təsdiqləyir ki, FK əməkdaşları və XI Qırmızı Ordunun Xüsusi Şöbəsinin hərbçiləri elm, təhsil, ədəbiyyat, mədəniyyət, incəsənət adamlarını, ictimai-siyasi xadimləri həbs edərkən, mənzilləri axtarıb qiymətli əlyazmaları, sənədləri müsadirə edərkən protokola "Heç nə aşkar edilmədi" yazıb sahibinə qol çəkdirsələr də, əslində millətə və mədəniyyətə ciddi zərbə vuran qarətçilik və talançılıq aksiyasını həyata keçirirdilər. Axtarış zamanı aparılan əlyazmaların siyasi mahiyyət kəsb etmədiyi məlum olandan sonra da onlar sahibinə geri qaytarılmırdı. Cəfər Cabbarlının "Bakı müharibəsi", "Araz çayı" pyeslərinin, onlarla lirik, satirik şeirlərinin, hekayələrinin günümüzə gəlib çatmaması bu barbarlığın təəssüfdoğurucu nəticəsidir. Heyiflər olsun ki, Cümhuriyyətin süqutundan sonra Azərbaycan xalqına qarşı "xüsusi idarə"lərin, "Çeka"ların təməlini qoyduğu dəhşətli mənəvi terror ənənəsi uzun onilliklər inkişaf etdirilmiş və təkmilləşdirilmişdir.

+++

"İstiqlal" mətbəəsinə səyyar mətbəə də demək olar. Çünki fəaliyyət göstərdiyi iki ildən çox müddət ərzində təqib və izləmələrdən yayınmaq üçün dörd dəfə ünvanını dəyişmək məcburiyyətində qalmışdır. 1923-cü il oktyabrın 5-dən 6-na keçən gecə qəfil başlanan və bir aydan çox davam edən kütləvi həbslər zamanı saxlanan 20 nəfər azadlıq mübarizləri bunlardır: 1. Əbdül Vahab Məhəmmədzadə, 2. Cəfər Cabbarlı, 3. Rəhim bəy Vəkilov, 4. Kərbəlayi Vəli Mikayılov, 5. Əsədulla Məmmədov, 6. Ağa Məmməd İbrahimov, 7.Novruz Ağayev, 8. Qurban Musazadə, 9. Ağa Səlim Rəhimov, 10. Əli Abbas Əliyev, 11. Əli Həsən Babayev, 12. Məmməd Kərim Kərimov, 13. Əbdül Rəhman Əbdülov (təxəllüsü Dai - A.R.), 14. Yusif Nəsib Məşədi Əliş oğlu İsmayılov, 15. Nəsrulla İsrafilov, 16.Məşədi İslamov, 17. Salman Rəhimov, 18. Hacı Baba Cəbiyev, 19. Ağa Kərim Əliyev, 20. Mürsəlqulu İmanov.

Adları çəkilən şəxslər dövrünün tanınmış ziyalıları, ədibləri, mühərrirləri, mətbuat nümayəndələri və vətənpərvər qüvvələr idi.

Gizli "İstiqlal" mətbəəsinin aşkarlanması ilə bağlı axtarış və həbslər üçün Az.FK Protokolunun nəticə hissəsinin 8-ci bəndində yazılır: "5 oktyabr 1923-cü ildə Bakı Milisinin 3-cü rayonuna Ağa Saleh Xəlil oğlu ərizə ilə müraciət etmiş, axtarış nəticəsində Müsavatın gizli mətbəəsi aşkar edilmişdir" (AR MTN Arxiv - PR-20002, iş-25693, vərəq 3.).

Araşdırma zamanı məlum oldu ki, müstəntiq Avlasyeviç 1923-cü il 13 oktyabr tarixində Ağa Saleh Xəlil oğlunu şahid qismində Az.FK-ya dəvət etmiş, ondan izahat almışdır. Məlum olmuşdur ki, 26 yaşlı Ağa Saleh Cümhuriyyət dövründə və ondan əvvəl fəhlə işləmiş, sovet rejimi zamanı bir müddət milisioner, milisdən qovulduqdan sonra isə işsizdir. Küçədə tütün alveri ilə məşğul olur. Ağa Saleh Xəlil oğlu müstəntiqə verdiyi izahatında yazmışdır: "Bir neçə dəfə gördüm ki, Novruz Ağayev küçədə Hacı Baba Cəbiyevlə görüşüb danışır. İndi gizli mətbəə yerləşən evin sahibi Hacı Baba Cəbiyevi tapmaq, gizləndiyi yeri bilmək üçün Novruz Ağayevdən soruşmaq olar.

Sual: Novruz Ağayevin əlamətlərini yazın.

Cavab: Novruz Ağayev uca boylu, yaşı təxminən 46-50 olar" (AR MTN Arxiv - PR-19892, Novruz Ağa oğlu Ağayev, İş-25697, vərəq 9).

Həbs olunan 20 nəfər istiqlalçının hər birinə müstəntiqin ilk sualı belə idi: Mirzə Balanı, onun qohumlarını tanıyırsanmı? Axırıncı dəfə onunla nə vaxt və harada görüşmüsən? Mirzə Bala harada yaşayırdı?

Mirzə Balanın Azərbaycanda olmadığını bilən istiqlalçılar bu suallara səmimi cavab versələr də, amansız işgəncələrə məruz qalırdılar. Müstəntiqlər istədiklərinə nail ola bilməyəndə heç protokol da tərtib etmirdilər. Bəzən məhbusların istintaqa verdiyi ifadələr bu cümlələrlə başlayırdı: "Əvvəllər istintaqa yayğın ifadələr verməşəm. Xəbərdarlığı nəzərə alaraq səmimi ifadə verməyə hazıram". Bu cümlələrdən sonra müstəntiqlər məhbuslara istədikləri fikirlərə qol çəkdirirdilər. Bu cümlələrə qədər isə yol qeyri-insani işgəncə üsullarından, psixoloji terrordan, mənəvi sarsıntılardan, təzyiq vasitələrindən keçirdi.

Həmkarının gözləri qarşısında baş verən vandal və barbar cəza üsullarını iqrar edən, təsdiqləyən, "Qırmızı terror"un ilk illərində Azərbaycan Milli Qurtuluş hərəkatının başında dayanan Mirzə Bala Məhəmmədzadə dostu Cəfər Cabbarlının vəfatının üçüncü ildönümü münasibətilə ağır və məşəqqətli 1923-cü il hadisələrini yada salaraq yazırdı: "1923 Cəfərin həyatında mühüm bir yer tutur. İstila və vəhşət rejiminə qarşı gizli çalışan Cəfər bu il digər müsavatçı arkadaşları ilə yaxalanmış və çeka bodrumunda aylarca ən ağır işgəncələrə məruz tutulmuşdur" (Mirza-Bala. Cafer Cabarlı: Vefatının 3-cü yıl dönümü münasebetilə. Berlin, "Kurtuluş" aylık mecmua, 1938, Son kanun (yanuar) №39, səh.17).

Birinci həbsdə olduğu kimi, ikinci həbsdən sonra da Az.FK əməkdaşlarının yalanının üstünün açılması özünü çox gözlətmədi. C.Cabbarlının mənzilini ələk-fələk edərək 5 oktyabr 1923-cü il tarixli protokolunda "Axtarış zamanı tapıldı və müsadirə edildi" qrafasının qarşısında rus dilində - "Ni çeqo ne obnarujeno" (Heç nə aşkar edilmədi - A.R.) sözlərini yazanların Xalq Maarif Komissarı Tağı Şahbazinin və katib O.Cəlalbəyovun imzası ilə iki dildə (Azərbaycan və rus dillərində - A.R.) yazılmış, "Gizlin" qrifli heyvan dolu məktubu ilə saxtakarlığı üzə çıxdı. Məxfi məktubda yazılırdı: "Gizlin. Azərbaycan Fövqəladə Komissiyonuna. Cabbarzadə həbs olunan zaman onda olan cümlə məktubələr, əz an cümlə məktubələr arasında bulunan "Qız qalası" əfsanəsi də alınmışdır. Həmin "Qız qalası" əfsanəsini Xəlq Məarif Komissarlığı kəndi parası ilə alaraq birinci hissəsi Məarif Komissarlığı tərəfindən nəşr olunan "Məarif və mədəniyyət" jurnalında təb olunmuşdur. İkinci hissəsi isə müəllifə verilmişdir ki, baxsun və jurnalın növbəti nömrəsində nəşr ediləcək idi.

Cabbarzadənin məktubələrinin arasında bulunan "Qız qalası" əfsanəsinin istisna edilərək Xəlq Məarif Komissarlığına verilməsinə dair qərardad edilməsi rica olunur. Xəlq Məarif Komissarı T.Şahbazi, katib O.Cəlalbəyov" (AR MTN. Arxiv № PS. 1008, Cəfər Cabbarzadənin işi üzrə, St. Qeyd. № 3845.İş № 791, vərəq 8).

Məktub məxfi şöbədə "8.X.23" tarixində 2697 nömrəsi ilə qeydə alınmış, icra edilməsi üçün Az.FK-nın Məxfi şöbəsinin səlahiyyətlisi Daad Məmmədə ünvanlanmışdır. Daad M. isə tapşırığı dərhal yerinə yetirmiş, yəni "Qız qalası" poemasının müsadirə edilmiş əlyazmasını "tapıb" üzə çıxararaq Maarif Komissarlığına göndərmiş, məktuba isə dərkənar qoyaraq onu Cəfər Cabbarzadənin sənədlər qovluğuna daxil etmək göstərişini vermişdir.

Ağa Səlim Rəhimov Az.FK-nın kamerasında uzunmüddətli və qeyri-insani metodlarla həyata keçirilən əzab və işgəncələrdən sonra 1923-cü ilin dekabrın 9-da istintaqa verdiyi ifadəsində "İstiqlal" qəzetini hansı çətinliklər hesabına nəşr etdiklərindən yazırdı.

"İstiqlal"ın 19-cu nömrəsində iki mövzu xüsusi aktuallıq kəsb edirdi. Bunlardan biri Dağlıq Qarabağda yaşayan ermənilərə muxtariyyət verilməsinə həsr olunmuş intibahnamə idi. Mirzə Balanın Heyəti-Mərkəziyyə adından verdiyi sərt bəyanatda Dağlıq Qarabağ muxtariyyətinin təsisi Azəri-türk xalqına qarşı bolşeviklərin törətdiyi misilsiz xəyanət və cinayət kimi qiymətləndirilmişdir. İkincisi, "Fond" məqaləsinin gündəmə gətirdiyi əsas məsələ İstiqlal Komitəsinin maliyyə probleminin günü-gündən ağırlaşan vəziyyətinə çarə aramaq, yardım fondu yaratmaqdan ibarət idi. Üzvlük haqlarından və ianələrdən ayda toplanılan 220-230 manatdan aclıq keçirən məhbuslara və ailələrinə, M.Ə.Rəsulzadənin xanımı Ümbülbanudan tutmuş sonuncu həbs olunan istiqlalçının ailəsinə qədər 10-70 manat miqdarında yardım olunurdu.

"İstiqlal"ın sonuncu - 19-cu sayını çap edən Ağa Səlim Rəhimovu və Qurban Musazadəni "iş başında" yaxalayaraq onların qollarını qandallamış, qəzetin bütün nüsxələrini isə müsadirə etmişlər.

Az.FK-nın müstəntiqlərinə 12 dekabr 1923-cü il tarixində ifadə verən "Gənc işçi" qəzetinin məsul katibi, şair, 25 yaşlı Əbdül Rəhman Dai yazırdı: "Mən, gizli Müsavat partiyasının üzvü Salman Rəhimovun mənzilində çap üçün şrift yığmışam. İlk dəfə 1921-ci ilin yayında və bütün ilboyu yığmışam. 1922-ci ildə bir dəfə, 1923-cü ildə dörd dəfə: ilin əvvəlində 1 bəyannamə, 27 aprelə aid yığmışam, son ikisini unutmuşam. Bəyannamələr Sovet hökumətinin əleyhinə, Azərbaycanda bolşevik hökumətinin devrilməsinə çağırış idi" (AR MTN. Arxiv № Pr. 20007, Ağa Səlim Rəhimovun işi üzrə memorandum, İş № 2698, vərəq 58).

Birləşmiş Dövlət Siyasi İdarəsinin Kollegiyası yanında Xüsusi Şuranın 25 aprel 1924-cü il tarixli qərarı ilə Əli Abbas Əliyev, Cəfər Cabbarlı və Mürsəlqulu İmanov istisna olunmaqla (1-ci Petrovski şəhərinə qaça bilmiş, 2-ci və 3-cünün günahsızlığı sübuta yetirilmişdir - A.R.) əksər istiqlal mücahidləri 2-3 il müddətinə Ağ dənizdəki Solovki ölüm düşərgəsinə, sürgün edilmişdir. Rəhim bəy Vəkilov üç illik sürgündən yalnız 10 ildən sonra, 1934-cü ildə qayıda bilmiş, yenidən təqib olunduğu üçün Tiflisdə intihar etmişdir. Ağa Səlim Rəhimov, Ağa Kərim Əliyev sürgündən salamat qayıtsalar da, yenidən gizli fəaliyyəti davam etdirdiklərinə görə Az.FK tərəfindən yenidən tutulub güllələnmişlər. Əbdül Vahab Məhəmmədzadə və Kərbəlayi Vəli Mikayılzadənin sürgün müddətləri dəfələrlə artırılmış, beləliklə, onlar 1932-ci ildə azad olunaraq Türküstana, oradan da İrana keçərək FK təqiblərindən xilas ola bilmişlər. Hacı Baba Cəbiyev, Qurban Musazadə, Məşədi İslamov və Salman Rəhimov 1926-cı ilin oktyabrın 22-də sürgündən buraxılsalar da, vətəndə daima təqib olunmuşlar.

Beləliklə, Milli İstiqlal hərəkatının rəhbərliyi və üzvləri ictimai, siyasi, hərbi, mədəni sahələrdə işğala, terrora, zorakılığa, talançılığa, ayrı-seçkiliyə, özbaşınalığa qarşı mübarizə aparmaqla xalqın milli mənliyinin, məğrurluğunun, adət-ənənələrinin, mənəvi dəyərlərinin keşiyində cəsarətlə dayanırdılar. "İstiqlal" qəzetinin və eyniadlı mətbəənin bolşevik rejiminin sərtləşdiyi dövrdə səmərəli və ardıcıl fəaliyyəti Azərbaycan xalqına, ədəbiyyatına və mədəniyyətinə baş ucalığı gətirən, müstəqil ölkəmizin hər bir vətəndaşında fəxarət duyğusu yaşadan, keçməkeşli tariximizdə və taleyimizdə danılmaz qürurlandırıcı faktdır.

(Ardı var)